**Səmirə Şəmsəddin QULİYEVA**
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

# AZƏRBAYCANIN BALTİKYANI VƏ SKANDİNAVİYA ÖLKƏLƏRİ İLƏ İQTİSADİ ƏMƏKDAŞLIĞININ ƏSAS PRİORİTETLƏRİ

**Xülasə**

Məqalədə əsas məqsədo Azərbaycanın inkişaf etmiş “kiçik ölkələrlə” qarşılıqlı əməkdaşlığının əsas prioritetlərini müəyyənləşdirmək və dayanıqlı effektivliyin təminatı nöqteyi-nəzərindən struktur özəllikləri qiymətləndirməkdən ibarətdir. Tədqiqat işinin metodikasının ümum elmi metodlardan, o cümlədən müqayisə, qruplaşdırma, abstraksiya, sistemli-funksional yanaşma metodu və.s təşkil edilmişdir.Tədqiqatda Azərbaycanın Skandinaviya və Baltikyanı ölkələrlə qarşılıqlı iqtisadi əlaqələri və inkişaf perspektivlərinin öyrənilmişdir. Tədqiqatın elmi yeniliyini ölkələrarası iqtisadi əməkdaşlığın gücləndirilməsi, bu fonda xarici ticarət uduşunun yerinin faydanın maksimumlaşdırılmasına istiqamətlənməsi və geoiqtisadi paradiqmanın əsas hədəfə çevrilməsi zərurəti, Skandinaviya-Baltikyanı ölkələrlə Azərbaycanın qarşılıqlı iqtisadi əməkdaşlığının bu yönümə uyğunlaşdırılmasının məqsədəuyğunluğu istiqamətində konkret fikirlər təşkil edir. Tədqiqatın əsas nəticələri Azərbaycanla sözügedən ölkə qrupları arasında funksional fəaliyyətin rasional təşkili ilə əlaqədar olan məsələləri ehtiva etməkdədir.

**Açar sözlər**: əməkdaşlıq, inkişaf, əlaqə, struktur, ticarət, idxal, ixrac

**JEL:** J05
**UOT**: 331
**DOI:** https://doi.org/ 10.54414/JUNS7176

**Giriş**

Beynəlxalq ticarət, xarici iqtisadi fəaliyyət, xarici bazarlara çıxış ölkələrarası beynəlxalq iqtisadi əməkdaşlığın əsas bazasını təşkil edir. Bu konteksdə beynəlxalq ticarətdə xarici ticarət uduşunu hədəfləyən, sonrakı dönəmdə rəqabət fonunda dünya gəlirinə çıxışı əsas məqsəd kimi qarşıya qoyan tendensiya meydana gəlmişdir. Xarici ticarətlə yanaşı investisiya, məhsul və xidmət, innovasiya beynəlxalq əməkdaşlığın zəruri qollarıdır və hər bir ölkə milli fonda xarici ticarət strategiyası müəyyən etməklə, artıq yeni mərhələyə qədəm qoymuş beynəlxalq iqtisadiyyatda xarici ticarət uduşunu faydanın maksimumlaşdırılması ilə əvəz etməlidir. Nəticə etibarilə geoiqtisadi paradiqma əməkdaşlığın əsas konstruktsiyasına çevrilməlidir.

Belə ki, dünya gəlirinin yenidən bölüşdürülməsi düzgün şəkildə və mənfi təsirlər olmadan həyata keçirilməlidir. Bu istiqamətdə dövlətin rolu əsas faktorlardan biridir. Geoiqtisadi güc və geoiqtisadiyyat ölkə iqtisadiyyatları arasında əlaqə yaradan, siyasi və iqtisadi tərəfləri birləşdirən bir istiqamətdir. Qoballaşma proseslərinin ölkələrarası dərinləşməsinə təkan verən əsas hərəkətverici qüvvədir. Bu rəqabətdə uduzan tərəf yoxdur. Əsas məqsəd dünya gəlirinə çıxışın təmin edilməsidir.

Artıq aparılan təhlillərdə qeyd etmişdik ki, inkişaf etməkdə olan ölkələr, həmçinin Azərbaycan xarici ticarəti neoklassik paradiqma çərçivəsində həyata keçirir. Neoklassik yanaşmanın əsası gəlirin yüksəldilməsi və xərclərin azaldılması istiqamətinə yönəlmişdir. Mübadilə sferasına hədəflənmişdir. Dünya iqtisadiyyatı mütəmadi şəkildə dəyişikliyə məruz qalmaqdadır. “Oyun qaydaları” yeni mərhələyə qədəm qoyur. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında fərqlər dərinləşir. Nəticə etibarilə, beynəlxalq iqtisadiyyatın formaları struktur baxımından yeni istiqamət götürür. Geoiqtisadi paradiqmanın konseptual məzmunu yönümündə apardığımız müqayisəli təhlilin nəticələri müqayisəli üstünlüklər prinsipinin müasir dünyamızda öz əhəmiyyətini artıq

itirdiyini sübüt etməklə, xarici ticarətdə real sektorun əsas rolunu meydana çıxardı. Elmi-texniki tərəqqinin son nailiyyətlərinin istehsala tətbiq edildiyi bir dövrdə ölkələrarası xarici ticarət, həmçinin Azərbaycan da daxil olmaqla geoiqtisadi inkişaf paradiqmasına yönəlməlidir. Bu aspektdən tədqiqat obyekti olan Baltikyanı ölkələr, Skandinaviya ölkələri və Azərbaycanın iqtisadi əməkdaşlığının əsas prioritetləri bu istiqamətə əsaslanmalı, dünya gəlirinin bölgüsündə fəal iştirak hədəflənməlidir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan bir sıra iqtisadi islahatlar həyata keçirmiş, davamlı və dayanıqlı inkişafa nail olmuş, 30 ildən artıq bir müddətdə işğal altında olan ərazilərini azad etmiş və bugün öz gerçəkliklərini dünya miqyasında qəbul etdirmişdir. Təbii ki, dünya iqtisadi məkanında baş verən proseslər Azərbaycana da müxtəlif neqativ təsirlər göstərsə də, ölkəmiz bir çox iqtisadi göstəricilərə görə inkişaf yönümlülüyü qoruyub saxlaya bilmişdir.

Son dönəm ölkələrarası iqtisadi münasibətlər beynəlxalq iqtisadi münasibətlərin bütün formaları üzrə daha da dərinləşir. Ölkələrarası qarşılıqlı asılılıq güclənməklə bərabər, hər bir ölkə digər ölkə ilə genişlənən açıq iqtisadiyyat nəticəsində qarşılıqlı fayda əldə edir. Bu baxımdan Azərbaycanın Skandinaviya və Baltikyanı ölkələrlə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi məqsədəuyğundur.

**Skandinaviya ölkələri ilə qarşılıqlı əlaqələrin sahə strukturu.**

Qarşılıqlı əməkdaşlığın əsas istiqamətlərindən biri enerjidir. Enerji səmərəliliyinə görə yalnız Norveç Azərbaycanla müqayisə oluna bilər. Bu isə iqtisadiyyatın dayanıqlı olduğunu göstərən faktdır. Son 20 ildə enerji səmərəliliyi Azərbaycanda 4 dəfə artmışdır. Norveç və Azərbaycan hər ikisi karbohidrogen ehtiyatları ilə zəngindirlər. Azərbaycanda fəaliyyət göstərən STATOİL şirkəti Azrbaycanın neft-qaz sektorunun inkişafında əvəzsiz rol oynamışdır. STATOİL Bakı-Tbilisi-Ceyhan qovşağının çəkilməsində də böyük rol oynamışdır. Şirkət həmçinin “Şahdəniz” və “Araz-Alov-Şərq” yatağının birgə işlənməsilə bağlı müvafiq olaraq 25,5 % və 15 % pay haqqına sahibdir. Norveç və Azərbaycan ticarət əlaqələri 1992-ci ildən başlayaraq qurulmuşdur.

İsveçlə Azərbaycanın qarşılıqlı investisiya qoyuluşlarına təkan verilməlidir. Belə ki, Azərbaycanın enerji səmərəliliyi 17% İsveçdən yuxarıdır. Bərpaolunan və alternativ enerji mənbələri istiqamətində əməkdaşlıq prioritet istiqamət kimi qiymətləndirilməlidir. Xüsusilə, işğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşu əhəmiyyətlidir. Azərbaycanın xarici siyasətində İsveçlə əlaqələr vacib yer tutur. Digər perspektiv istiqamət kimi dəmir yolu, hava yolu, avtomobil yolları, hava limanına investisiya qoyuluşları həyata keçirilə bilər. Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyi İsveçin maraqları çərçivəsindədir. Bu iki ölkə arasında turizmin inkişafına təkan verəcəkdir. Sənaye, xüsusilə qida sənayesi, metallurgiya, neft kimyası, kənd təsərrüfatı sahəsində əməkdaşlıq prioritet təşkil edir.

Azərbaycan-Danimarka iqtisadi münasibətlərində sərmayə qoyuluşu, ticarət əlaqələri, turizm, ticarət dövriyyəsi aşagıdır. Bu göstəricilərin yüksəldilməsinə təkan verilməlidir. İllik ticarət dövriyyəsi təxminən 30 mln. doll.təşkil edir. Danimarka Azərbaycana daha çox dərman preparatları ixrac edir.

Xüsusilə kənd təsərrüfatı sahəsi prioritet təşkil edir. Danimarka tərəfindən suvarma layihələrinə investisiya qoyuluşu məhsuldarlığın artmasına şərait yaradacaqdır ki, nəticədə Avropaya kənd təsərrüfatı mallarının ixracına şərait yaranacaqdır. İşğaldan azad olunmuş ərazilərdə ( 2022-2026-cı illər ) “ Yaşıl və “təmiz” enerji, yəni bərpa olunan enerji yaradılması potensial inkişaf vəd edir.

Belə ki, 3 may 2021-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2620 nömrəli qərarı ilə bu ərazilərdə ekoloji təmiz və yaşıl enerji təmin oluna bilər. Danimarkanın investisiya qoyuluşunu təşviq etməklə, elektrik nəqliyyat vasitələrindən istifadə, günəş panelləri, yolların işıqlandırılmasında LED işıqlardan istifadə, suyun isidilməsində bərpaolunan enerjidən istifadə, həmçinin tullantılardan enerji məqsədilə istifadə olunmasına şərait yaranacaqdır.

2050-ci ilə qədər işğaldan azad olunmuş ərazilərdə istixana qazı emmisiyası 40 % azaldılacaq ki, bu da “yaşıl və təmiz” enerjinin tətbiqinə təkan verəcəkdir. Xüsusilə, Zəngilan, Qubadlı, Cəbrayil, Füzulidə günəş enerji

potensialı 8500 MVT qiymətləndirilməkdədir. Laçın və Kəlbəcərin külək enerjisi 200 MVT dəyərləndirilmişdir. Külək enerjisi turbinlərinin istehsalının Danimarka tərəfindən həyata keçirilməsi müsbət nəticə verə bilər. Belə ki, Danimarkanın "Vestas" şirkəti 85 ölkənin alternativ külək və bərpaolunan alternativ enerji tətbiqilə bağlı layihələr həyata keçirmişdir və bu sahədə kifayət qədər təcrübəsi vardır. Həkəri və Tərtər çayında hidroenerji potensialı vardır. Bütün bunlar enerji təhlükəsizliyinin təmin olunmasında vacib əhəmiyyət daşıyır. Həmçinin günəş elektrik stansiyalarının tikilməsi, boyük müsbət nəticələr verəcəkdir. Qeyd olunan istiqamətlərə Danimarka tərəfindən investisiya qoyuluşu nəticəsində əhəmiyyətli irəliləyiş əldə olunacaqdır. "Yaşıl enerji" tükənməz mənbələrdən alınan enerjidir. Günəş, külək, yağışı əsas mənbə götürməklə, bir damla belə yanacaq olmadan təmiz enerji istehsal olunur. Azərbaycanda bərpaolunan enerji üzrə 26940 MVT, külək üzrə 3000 MVT, günəş üzrə 23040 MVT potensial mövcuddur. Bərpaolunan enerjinin Azərbaycan enerjisində payı 17,22 % təşkil edir.

Azərbaycan və Danimarka arasında ticarət dövriyyəsinə gəldikdə, 2019-cu ilə nisbətən 2023-cü ilin ilk 6 ayı ilə müqayisədə 2 dəfədən çox artıma nail olunmuşdur. Danimarka Azərbaycanın biznes və investisiya mühitindən, nəqliyyat-logistika imkanlarından yararlana bilər. Beləliklə, xüsusilə qeyri-neft sektoruna investisiya qoyuluşu müsbət nəticələr verəcəkdir. İsveçdən elektrik transformatorların idxalı; Danimarkadan dərman vasitələri, ağacdan mebellər, süd və süd məhsullarının idxalı; regional inkişaf, idxal asılılığının azalması və ixracın artımına nail olunması mümkündür. Nəticədə, xüsusilə Norveçdən metal konstruktorlar, elektrik akkumlyatorların idxalı əhəmiyyətli yeniləşmələrə gətirib çıxara bilər.

**Baltikyanı ölkələrlə əməkdaşlığın əsas istiqamətləri**

Ölkəmizin Avropa ilə enerji əməkdaşlığına önəm verməsi, dəhlizlərdəki əsas mövqeyi, zəngin karbohidrogen ehtiyatları ilə Avropanın enerji təhlükəsizliyindəki rolu və Avroatlantik məkanla əlaqələri genişləndirilməsinə xüsusi önəm verən Azərbaycanın əsas tərəfdaşlarından biri Latviyadır. İqtisadi inkişaf potensialı, əlverişli biznes mühitinin, potensial imkanlar arasında olması, ikiqat vergitutmanın ləğv olunması inkişafa təkan verən önəmli amillərdir. Ticarət dövriyyəsi konkret məhsul üzrə artırıla bilər. Latviyadan kərə yağı, pendir, rezin şinlər, sanitar-gigiyenik məmulatlar, məişət kondisionerləri, sürtgü yağları, dərman vasitələri idxalı; Litvadan iri-buynuzlu mal-qara idxalı; Estoniyadan təzə və dondurulmuş balıq idxalı məqsədəuyğundur. Latviya ilə əməkdaşlıq zamanı sənaye, rabitə, ticarət, bank, siğorta sahəsində əməkdaşlığın həyata keçirilməsi daha da genişləndirilməlidir. İKT, əczaçılıq, tranzit yükdaşıma, qeyri-neft sektoruna investisiya qoyuluşunun artırılmasına daha da təkan verilməlidir. Latviyanın xüsusilə aqrar parklarda iştirakı vacibdir. 2020-ci ildə ticarət dövriyyəsi 8,75 mln, idxal 7,9 mln. təşkil etmişdir. 2023-cü ilin ilk 8 ayında Latviya ilə ticarət dövriyyəsi 68,1 % ( 17,76 mln.doll) artaraq 43,8 mln.doll. olmuşdur. Latviyaya 30,2 mln.doll. məhsul ixrac olunmuşdur ki, bu rəqəm 2022-ci ilin eyni göstəricisindən 16,96 mln. doll. və ya 2,27 dəfədən çox olmuşdur. Latviyadan idxal edilən məhsulların dəyəri 6,2 % (800,4 min doll.) artaraq 13,6 mln.doll.təşkil etmişdir.

Ticarət əlaqələrinin genişlənməsi, nəqliyyat, komunikasiya, energetika, kənd təsərrüfatı, turizm əməkdaşlığına təkan verilməlidir. İnformasiya texnologiyaları layihələrinə daha çox maraq mövcuddur.

2007-2022 ci illərdə Azərbaycan Litvada keçirilən 26 layihənin 17-də qalib gəlmişdir. Ümumi dəyəri 20 mln.avro olan bu layihənin 12-si həyata keçirilmiş, 5-i icra dönəmindədir. 2022-ci ildə Litva ilə ticarət dövriyyəsi 33 mln. doll.olmuşdur. 2023-cü ilin avqust ayına olan məlumata əsasən bu rəqəm 60 mln.doll təşkil edir. Azərbaycanda nəqliyyat, tikinti,ticarət, xidmət sahələrində Litva investisiyalı 20 kommersiya qurumu fəaliyyət göstərir.Azərbaycandan Litvaya ümumən 36 mln.doll sərmayə qoyulmuşdur. Litva Klaypedada ən böyük dəniz limanıdır. 21 aprel 2008-ci ildə, Bakıda Azərbaycan Respublikası Hökuməti və Litva hökuməti arasında "İqtisadi - Sənaye -Enerji" üzrə əməkdaşlıq sazişi bağlanmışdır. "Şərq tərəfdaşlığı" proqramına uyğun olaraq Litva ilə əməkdaşlıq həyata keçirilmişdir. Iqtisadi , enerji, ticarət, turizm,

kənd təsərrüfatı sahələrində əməkdaşlıq sənədləri imzalanmışdır. Azərbaycanın geosiyasi vəziyyəti, sərvətləri strateji tərəfdaşlığa təkan verir. Azərbaycan uzun illər Avropa İttifaqı ilə əməkdaşlıq etməkdədir, bu iqtisadi əlaqələrin inkişafına zəmin yaradan əsas ölkələrdən biri Litvadır. Perspektiv olaraq əməkdaşlığın genişlənməsi, təkcə Cənubi Qafqazda və Baltikyanı ölkələrdə deyil, ümumilikdə Avrasiya məkanında nəqliyyat-komunikasiya imkanlarının yaradılmasına təkan verəcəkdir.

Estoniya ilə Azərbaycanın münasibətləri çərçivəsində ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq perspektivlər arasındadır. Estoniyanın Avropa Birliyinin üzvü olan ölkələrdən biri kimi Azərbaycanla əməkdaşlığının perspektiv imkanları mövcuddur. Belə ki, Estoniyanın Şərq tərəfdaşlığında iştirakı mühüm istiqamətdir. Nəqliyyat infrastrukturu və mal dövriyyəsinin artırılması perspektiv imkanlar arasında yer alır. Xüsusilə, işğal olunmuş ərazilərə investisiya qoyuluşu potensial istiqamətdir. Ölkələrarası iqtisadi münasibətlərdə ikiqat vergitutma aradan qaldırılmış, Azərbaycan Respublikası Hökuməti və Estoniya Hökuməti arasında ticarət iqtisadi əməkdaşlıq haqda Saziş təsdiq edilmişdir. Qanunda ticarət-iqtisadi əlaqələrin hüquq bərabərliyi çərçivəsində inkişaf etdirilməsi, təsərrüfat subyektləri arasında münasibətləri genişləndirmək üçün uyğun şərait yaradılması, ikitərəfli məhdudiyyətlərin tətbiqilə bağlı maddə əks olunmuşdur. Əməkdaşlıq əsasən informasiya texnologiyaları və bank işi sahəsində həyata keçirilir. Ölkələrarası əmtəə dövriyyəsi 4 843,54 ( 2020 ), 6 131,37 ( 2021 ), 9 393,18 ( 9 mln. 393 min ) ( 2022 ) təşkil etmişdir. 2023-cü il noyabr ayına olan statistik məlumata əsasən, 2022-ci ilin müvafiq dövrünə uyğun olaraq 34,3 % ( 2,9 mln.doll.) artım əldə olunmuş və bu rəqəm 11,4 mln. dolları üstələmişdir. Nəzərdə tutulan dövrdə Estoniyaya 5,6 mln. doll. dəyərində məhsul ixrac edilmişdir ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 3,65 mln.doll.çoxdur. Estoniyadan idxal olunan məhsulların dəyəri isə 11,2 % azalmış, 5,8 mln. doll. təşkil etmişdir.

Estoniya Şimal-Cənub nəqliyyat dəhlizinə qoşulmaqla rabitə əməkdaşlığının inkişafına daha da təkan verməlidir. Həmçinin əlaqələrin daha da genişlənməsi üçün müqavilə-hüququ bazasını genişləndirilməlidir. İnvestsiya qoyuluşlarına təkan verilməlidir ( əsasən işğal olunmuş ərazilərdə ). Kənd təsərrüfatı, dəmir yolu, rəqəmsal həllər, logistika sahəsində əməkdaşlığın qarşılıqlı potensial imkanları mövcuddur.

Xarici ticarət dövriyyəsinin əmtəə strukturu aşağıdakı kimi formalaşmışdır:

Azərbaycandan əsas qara metallar, polad yarımfabrikatları, spirtli-spirtsiz içkilər, poladdan borular, raektiv kerosin, nar şirəsi və s. ixrac olunur. İdxal isə kranlar, mobil telefonlar, elektrik avadanlıqları, iribuynuzlu mal-qara, kimyəvi toxuculuq materialları, əczaçılıq məhsulları, plastik, alüminium, taxta-şalban və s. İstiqamətdədir.

Beləliklə, yuxarıda sadalanan istiqamətlər və göstərilən tərəflər Azərbaycanın Baltikyanı-Skandinaviya ölkələrilə qarşılıqlı əməkdaşlığının daha da inkişafına təkan verəcək və qarşılıqlı münasibətlər daha da dərinləşəcəkdir.

**Nəticə**

Azərbaycanın inkişaf etmiş Skandinaviya ölkələri, eləcə də Avropa İttifaqının üzvü olan Baltikyanı ölkələrlə qarşılıqlı əməkdaşlığının inkişafı ölkənin gələcəyi nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir. Hər iki qrup ölkələr Azərbaycanın yüksək keyfiyyətli iqtisadi gələcək quruculuğunda mühüm rol oynaya bilərlər. Belə ki;

- İnkişaf etmiş Şimali Avropa regionuna, ələlxüsus Avropa İttifaqına effektiv çıxışın gerçəkləşməsi ehtimalı-məsələn, İtaliya ilə əməkdaşlığa nisbətən-daha yüksəkdir.
- Sözügedən hər iki qrup ölkələr – Azərbaycan kimi “kiçik” ölkələrdir. Bu anlamda nail olduqları yüksək inkişaf səviyyəsinə çıxışın dəyər-konsept tutumunun öyrənilməsi və tətbiqi praqmatik prizmadan mühüm rol oynaya bilər.
- Qarşılıqlı əməkdaşlığın inkişafı Azərbaycanın kollektiv Qərblə olan münasibətlər kompleksinin rasional müstəviyə keçirilməsi prizmasından əlahiddə əhəmiyyət kəsb edir.
- Və, nəhayət sübut etməyə ehtiyac yoxdur ki, qarşılıqlı əlaqənin “sıxlaşdırılması” “kiçik” ölkənin (Azərbaycanın) iqtisadi suverenliyinin qorunub saxlanmasında “mühafizə zolağı” keyfiyyətində çıxış etmək iqtidarındadır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri, www.mfa.gov.az ;

2. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı

3. Cabbarov Ə., Abbasova S., Tanrıverdi H., «Erməni işğalı sonrası Qarabağda turizmin inkşafı məsələləri», International Journal of Tourism. Economic and Business Sciences, 2020, №4(2).

4. Кадиров А.А.., Воробец Т.И., «Опыт Турции в развитии туристской отрасли», Исследование, систематизация, кооперация, развитие, анализ социальноэкономических систем в области экономики и управления, Искра-2019.

5. Лапкин В.Т. Геоэкономическая политика и глобальная. В.Пантин. Политическая история. М: Олита-2004

6. Кочетов Э. А. Геоэкономика. М; БЕР; 1999

7. Gandilova S., «Sustainable development of tourism: the case of Azerbaijan» 2019, №3, 5 стр.;

**Samira Shamseddin GULİYEVA**
Dissertation student of Azerbaijan State University of Economics

## THE MAİN PRİORİTİES OF AZERBAİJAN'S ECONOMİC COOPERATİON WİTH THE BALTİC AND SCANDİNAVİAN COUNTRİES

**Abstract**

The main purpose of the article it consists of determining the main priorities of Azerbaijan s mutual cooperation with developed “small” countries and evaluating the structural features from the point of view of ensuring sustainable effectiveness. Methodical apparatus of the research work from general scientific methods, including comparison, grouping, abstraction, systematic-functional approach methods. The main results of the study the country in question with Azerbaijan includes issues related to the rational organization of functional activities between groups. The applied importance of the research is the study of mutual economic relations and development prospects of Azerbaijan with Scandinavian and Baltic countries. The scientific innovation of the research, the strengthening of economic cooperation between countries, the need to direct foreign trade gains to the maximization of benefits and to turn the geo-economic paradigm into the main goal, concrete ideas were put forward in the direction of the appropriateness of adapting the mutual economic cooperation between Scandinavia and the Baltic countries of Azerbaijan to this direction.

**Keywords:** cooperation, development, relationship, structure, trade, import, export.

**Самира Шамседдин ГУЛИЕВА**
**Диссертант Азербайджанского Государственного Экономического Университета**

## ОСНОВНЫЕ ПРИОРИТЕТЫ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА СО СТРАНАМИ БАЛТИИ И СКАНДИНАВИИ

**Резюме**

Основная цель статьи определить основные приоритеты взаимного соотрудничества Азербайджана с развитыми “малыми” странами и оценить структурные особенности с точки-зрения обеспечения устойчивой эффективности. Методический аппарат исследовательской работы организуется из общенаучных методов, в том числе сравнения, группировки, абстракция, метода системно-функционального подхода и.т.д. К основным результатам исследования относятся вопросы, связанные с рациональной организацией функциональной деятельности между Азербайджаном и рассматриваемой страной. Прикладное значение исследования заключается в изучении взаимных экономических связей и перспектив развития Азербайджана со Скандинавскими и Балтийскими странами.n Научная новизна исследований, укрепление экономического сотрудничества между странами, необходимость направить внешнеторговый успех на максимизацию выгоды и превратить геоэкономическую парадигму в главную цель, были выдвинуты конкретные идеи в направлении целесообразности адаптации к этому направлению взаимного экономического сотрудничества Азербайджана со Скандинавскими странами и Балтии.

**Ключевые слова**: развитие, сотрудничество, структура, отношения, торговля, импорт, экспорт